# Məişət zorakiliğinin baş vermə səbəbləri və nəticələri

**Səcdə İlkin qızı Məmmədova**
*Azərbaycan Universiteti*
**E-mail:** memmedova.sejde@bk.ru

**Rəyçilər:** psixol.ü.f.d. A.R. Bünyatova,
psixol.ü.f.d. T.M. Verdiyeva

**Açar sözlərlər:** məişət zorakılığı, zorakılığa məruz qalmış şəxslərin dövlət tərəfindən mühafizəsi, məişət zorakılığının növləri, ikinci dalğa, qadın hüquqları, məişət zorakılığının kliniki və hüquqi tərəfləri

**Ключевые слова:** домашнее насилие, государственная защита жертв насилия, виды домашнего насилия, вторая волна, права женщин, клинические и правовые аспекты домашнего насилия

**Key words:** domestic violence, state protection of victims of violence, types of domestic violence, second wave, women's rights, clinical and legal aspects of domestic violence

"Məişət zorakılığı bütün dünyada geniş yayılmışdır. Aparılan bütün tədqiqatlara əsasən məişət zorakılığının əsas qurbanları qadınlar olsa da, əslində məişət zorakılığı yalnız qadınlara aid deyildir və tam gender əsaslı sayıla bilməz. Tədqiqatlara əsasən məişət zorakılığı qurbanlarının 95%-ni qadınlar təşkil edir" (1, s. 4). Məhz bu səbəbdən bir çox hallarda məişət zorakılığı probleminə gender aspektindən yanaşılır. Məişət zorakılığının qurbanları sırasında nikah və ya digər cinsi münasibətə olanları deyil, həmdə valideynlər, uşaqlar və ailə daxilində yaşayan digər şəxslər də vardır. Məişət zorakılığı bir ailənin deyil, cəmiyyətin təhlükəsizliyinin əsasları üçün təhdiddir. Məişət zorakılığının total xarakter daşıması, xüsusən də bu zorakılıqların patriarxat dəyər və adətlərin hökmran olduğu cəmiyyətlərdə baş verməsi cəmiyyətin və dövlətin inkişafını əngəlləyəcək qədər təhlükəlidir. Məişət zorakılığına qarşı mübarizə bütün cəmiyyətlərdə olduqca mürəkkəb bir işdir.

Məişət zorakılığı dedikdə beynəlxalq termin kimi ailədaxili zorakılıq başa düşülür. Yəni, bir ailə üzvü digər ailə üzvünü bu və ya digər yollarla öz nəzarəti altında saxlamaq istəyir. Belə ki, ata və ya ananın öz övladlarına istəklərini etməyə zorlamaq, ailədə kişinin qadına və ya qadının kişiyə şiddət göstərməsi bu kimi hallara nümunə olaraq göstərilə bilər. Ailədaxili zorakılığın bir neçə növü vardır. Bunlar fiziki, psixoloji, sosial, iqtisadi və cinsi cəhətdən ola bilər:

• Fiziki zorakılıq dedikdə söhbət döyülməkdən gedir (yumruqlama, təpikləmə, şilləmə, hər hansı kəsici və ya deşici alətlə bədənə müxtəlif xəsarətlər yetirmə). Fiziki zorakılığa daha çox azyaşlı uşaqlar və qadınlar və əlilliyi olan şəxslər daha çox məruz qalır.

• Psixoloji zorakılıq dedikdə, ailə üzvlərindən birinə göz təması ilə, mimika və jestlərlə və qeyri-etik ifadələrlə depresiyaya salma, özünə qəsd həddinə çatdırma və ya özünə qəsd başa düşülür.

• Sosial zorakılıq ailədəki bir şəxsin digərini cəmiyyətdən uzaqlaşdıraraq sosial adaptasiyasını ləngitməsi nəzərdə tutulur. Belə ki, texnoloji vasitələrdən istifadəsini məhdudlaşdırmaqla cəmiyyətdə baş verən hadisələrə biganə yanaşmağa sövq edir.

• İqtisadi zorakılıq ailənin bir üzvünün bir intim partnyorun digəri üzərində kontroludur. Həmin şəxs digərinin iqtisadi resurslara girişini məhdudlaşdırır; özünü iqtisadi baxımdan tə-

min etməyinə imkan vermir və özündən asılı vəziyyətdə saxlayır.

• Cinsi zorakılıqda isə zorlanmalardan söhbət gedir. Cinsi zorakılıq təhrik etmək, zor və ya hədə qorxu yolu ilə edilən razılaşdırılmamış cinsi əlaqədir. Cinsi zorakılıq gender zorakılığı, ifadə azadlığı, digəri üzərində olan nəzarət və hökmranlıq zəminində törədilən məqsədyönlü hərəkətdir. Bu nəzarətsiz istəyin, cəlb edilmənin və ya sövq etmənin təzahürü deyil.

"Məişət zorakılığının kliniki və hüquqi tərifləri mövcuddur. Belə ki, hüquqi məişət zorakılığı deyildikdə" yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui istifadə etməklə, bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır. Kliniki tərifi isə yeniyetmələr, gənclər və böyüklərin öz intim partnyorlarına qarşı törətdikləri fiziki şiddət, cinsi zorakılıq, psixoloji basqı, iqtisadi asılılıq və ya məhrumetmə kimi aşağılayıcı və zorakı davranışların törədilməsi ardıcıllığıdır" (2).

Məişət zorakılığı və ya şiddət törətmək seçimi daha çox davranışla səciyyəvi olan bir problemdir və bu problem adətən şəxsin uşaqlıq vaxtında nə dərəcədə valideynlərinin bir-birinə qarşı zorakılıq törətdiklərinə şahidliyi ilə sonradan öyrənilən bir prosesə çevrilir. Şiddət öyrənilə biləcək bir davranışdır. Ən vacib öyrənmə mənbəyi cinayətkarın öz ailəsidir. Uşaqlıqda və yeniyetməlikdə məişət zorakılığının tətbiq olunduğu bir mühitdə böyüyənlərin şiddət göstərməyə meyilli olduqları müşahidə edilmişdir. Ailədaxili zorakılığın miqyasına, və ondan doğan təhlükələrə nəzər salsaq görərik ki, zorakılıq yalnız ailənin bir üzvünə yönəldiyi halda, onun təsirindən ailənin digər üzvləri də zərər çəkir. Bu hal mütəxəssislər tərəfindən ikinci dalğa və yaxud təkrar qurban adlanır. "Təkrar qurban"ların şahidləri ilə aparılan söhbətlər zamanı, onların zorakılıqla üzləşmiş ailə üzvlərindən az psixoloji gərginlik keçirmədiyi aşkarlanır. "İkinci dalğa"nın qurbanı əsasən zorakılığın şahidi olan uşaqlar olur. Belə uşaqlar yüksək riskə məruz qalaraq, müxtəlif emosional gərginlik yaşayır. Məişət zorakılığının baş vermə səbəblərindən biri isə qadın və kişi hüquqlarının bərabər olmamısıdır. Bu hal təəssuf ki, bizim ölkəmizdə daha geniş yayılmışdır. Qadın və kişi arasında bərabər olmayan qüvvələr münasibətinin təzahür formasıdır ki, bu da qadınlar üzərində hökmranlığa gətirir. Münasibətlərdəki hökmranlıq isə mütləq daha zəif tərəf (ələlxüsus da iqtisadi) sayılan qadının kişi tərəfindən diskriminasiyası ilə nəticələnir. Qadınların güzəranının ağırlığı, onların kişilərdən asılı münasibətdə olması zorakılıqda əsas sosial mexanizm qismində iştirak edir. Məişət zorakılığını törədən şəxs hər hansı bir nəzarət funksiyasını yerinə yetirmək üçün fiziki şiddət üsulundan istifadə edir. Və bu davranış forması "kişi cinsiyyətli, haqqı çatmaq təsəvvürüdür, yəni kişilərə qadınlara nisbətən daha çox haqq qazandıran patriarxal strukturunun xüsusiyyətidir". Qadınlara qarşı zorakılıq xüsusən keçmiş patriarxal adət-ənənələrin qaldığı, üstünlük təşkil etdiyi regionlarda daha qabarıq şəkildə müşahidə olunur. Bu halı gender bərabərliyinin pozulması kimidə qiymətləndirmək olar. Buradan belə nəticəyə gəlmək olar ki, məişət zorakılığının baş vermə səbəblərindən biridə gender bərabərliyinin düzgün tənzimlənməməsidir ("Gender" – müəyyən cəmiyyətdə kişi və qadına xas olduğu hesab edilən sosial rollar, davranış, fəaliyyət növləri, xüsusiyyətlər deməkdir).

Hər bir millətin gələcəyinin formalaşmasında ən önəmli amillərdən biri, bəlkə də birincisi keyfiyyətli təhsildir. Təhsilli bir cəmiyyətə sahib olmaq üçün ən vacib amil isə, qızların sahib olduğu təhsil səviyyəsidir. Millət olaraq genefondumuzda qızların təhsilinə çox önəm verən BABALARIMIZ olsa da, bu gün XXI əsrdə qızlarının təhsil almaq istəyini elə öz evindəcə boğan on minlərlə ailə var. Bir kişinin (və ya oğlan uşağının) təhsil alması sadəcə bir nəfərin təhsil almasına bərabərdirsə, bir qadının (və ya qız uşağının) təhsil alması bir nəslin təhsil almasına bərabərdir. Məhz bu düşüncənin fərqində olan H.Z. Tağıyev müsəlman şərqində ilk qızlar məktəbini tikdirərək qızların təhsil almasına yaratdığı imkanlarla əslində bir neçə nəslin

təhsil almasına şərait yaratmışdı.

Həştərxanda tatar dilində çıxan GUNAŞ-yəni Günəş qəzetində, Axund Məhəmmməd Pişnamazzadə tərəfindən maraqlı bir məqalə çap olunmuşdu. Çoxlarını narahat edən bu məqalədə, məzlum şərq qadınının taleyinə toxunulurdu. Cavan ailələr nə üçün tez dağılır, müsəlman oğlanlar nə üçün öz qızlarımızı bəyənmirlər, ailə həyatının zəhərlənməsinə səbəb nədir? kimi suallara müəllif çox aydın cavab verirdi. Hamının acı-acı sezdiyi, fəqət heç kəsin dilinə gətirmədiyi sosial bəlanı qamçılayır, onun köklərini açıb göstərirdi. Müasir gənclərimiz get-gedə Avropa ruhunda inkişaf edir və tərbiyə olunurlar. Onların qadına münasibəti dəyişir. Digər tərəfdən biz müsəlmanlar isə, qızlarının tərbiyəsinə və təhsilinə əsla fikir vermirik. Beləliklə, xarakterdə, tərbiyədə və inkişafda iki əks qütb yaranır. Ailə ixtilafları da, ziyalılarımızın savadsız müsəlman qızları ilə evlənmək istəməməsi də, elə burdan irəli gəlir. Yazı həmin dövrün insanları tərəfindən müxtəlif fikirlərə məruz qalır. Şərq aləmində ailə işinə qarışmaq olar? Özü də kimdir bunları yazan: dövrün tanınan ruhani alimi, görkəmli bir şəriət bilicisi. Bu ki, islam təfəkkürünə çox ciddi bir zərbədir. Garaguruh o dəqiqə baş qaldırır. Güya müəllif şəriət qanunlarını pozur, milli hisləri tapdalayır. Güya xalqı çaşdırır, oğlanlara böhtan atır, qızları-qadınları pis yola dəvət edir. Bir tərəfdən də bəlli olur ki, Axundun iki qızı Tiflis qadın gimnaziyasında təhsil alır. Özü də, rus dilində!

Bütün zamanlarda yaşayan ziyalılarımız, dinimiz qızların harada və ya hansı dildə təhsil almasına qarşı olmayıb. Ancaq, milli və dini düşüncəmizdən uzaq bir sıra doğmalar qızların təhsil almasına əsrlərdir qarşı çıxmaqdadır. Qızların təhsil almaması onların öz hüquqlarını bilməməsinə gətirib çıxarır. Bütün bunlarda öz hüquqlarını bilməyən qadınların məişət zorakılığına məruz qalmasına gətirib çıxarır.

Boşanma hallarının artmaması və məişət zorakılıqlarının baş verməməsi üçün müvafiq addımlar atılmalı, çoxuşaqlı ailə yerinə əhali artımını azaltmayacaq səviyyədə az uşaqlı təhsilli uşaqların yetişdiriləbiləcəyi ailə modeli siyasəti həyata keçirilməli, aztəminatlı və rayonlarda yaşayan ailələrdə doğulan uşaqların təhsilə əlçatanlığını təmin etmək məqsədi ilə həmin ailələrə dəstək məqsədi ilə xüsusi dövlət proqramları hazırlanmalıdır. Yalnız bu şəkildə siyasətlə təhsilli və inkişaf etmiş cəmiyyətə sahib ola bilərik. Əgər hər nəsil özündən əvvəlki nəsildən daha üstün təhsilə sahib olarsa, güclü ölkəyə çevrilə bilərik.

Bəxtiyar Vahabzadənin "Axı dünya fırlanır" şerində dediyi kimi:

Mən atamı ötmüşəm, məni ötür övladım
Bu belə də, olmalı axı dünya fırlanır.

Təəssüf ki, çox vaxt ailəni qoruyub saxlamaq və uşaqlara mənəvi əzab verməmək naminə zorakılığın qurbanları kömək üçün müraciət etmirlər, bu da öz növbəsində daha ağır nəticələrə gətirib çıxara və hətta ölümlə nəticələnə bilər. Xoşbəxtlikdən qohumlar və yaxınların təkidi ilə zorakılıq qurbanları daha tez-tez hüquq-mühafizə orqanlarına müdafiə üçün müraciət edirlər.

Digər cinayətlər kimi ailədaxili zorakılıq hadisələrini dəqiq müəyyən etmək çətindir. Tədqiqatlar göstərir ki, cinayət səviyyəsində baş verən hadisələr bütün nikahların 20-40%-ni təşkil edir. Zorakılıq irqindən, təhsil səviyyəsindən, əhatə edən cəmiyyətdən asılı olmayaraq, istənilən ictimai-iqtisadi təbəqədən olan ailələrdə müşahidə edilir. Təxminən 40%-ə yaxın kişilər müəyyən anda öz həyat yoldaşlarına qarşı zorakılıq tətbiq edə bilərlər. Qanun məişət zorakılığına yol vermiş şəxslərin Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətlərə uyğun cəzalandırılmasını nəzərdə tutur.

“Belə ki, məişət zorakılığına qarşı mübarizənin hər tərəfli və kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikasının təmin edilməsi məqsədi ilə 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənən məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu 4 fəsil, 20 maddədən ibarət olub, özündə məişət zorakılığı haqqında ümumi məlumatı, məişət zorakılığı barədə şikayətlərə baxılması qaydası, məişət zorakılığının qarşısının alınması sahəsində tədbirləri və yekun müddəaları özündə birləşdirir. Bu qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir. “Məişət zorakılığının qarşısının alınması haqqında” qanun yalnız qadınların deyil, digər ailə üzvlərinin, o cümlədən uşaqların fiziki, psixi, cinsi və iqtisadi xarakterli zorakılıqlardan müdafiə edir” (3).

“Azərbaycanda məişət zorakılığına qarşı mübarizə sahəsində hüquqi bazanın yaradılması fonunda praktiki fəaliyyətlər hələ də qənaətbəxş səviyyədə deyildir. ATƏT-in Bakı ofisi tərəfindən hazırlanmış hesabatda göstərilir ki, “Məişət zorakılığının qarşısının alınması haqqında” 2010-cu il tarixli qanun və bu qanuna uyğun digər müvafiq qanunlara edilən dəyişikliklər, məişət zorakılığının qarşısının alınması və qurbanların müdafiə olunması üçün hüquqi əsasın yaranmasına şərait yaradıb. Bununla yanaşı, daha çox işlərin görülməsinə ehtiyac var” (1, s. 7).

“Mühafizə orderinin tətbiq olunması ilə bağlı qanunda nəzərdə tutulan prosedurlar hələ də tam şəkildə həyata keçirilmir. Cinayət Prosessual Məcəllə hələ də məişət zorakılığı qurbanlarının müdafiə olunması üçün xüsusi normalar nəzərdə tutmur. Azərbaycanda məişət zorakılığı qurbanlarının məhkəməyə çatımlılığının təmin olunmasında məhkəmələrin nə qədər böyük rol oynadığı, ATƏT-in məişət zorakılığına dair cinayət işləri üzrə müşahidəsində öz əksini tapıb” (4). Qeyd olunmalıdır ki, məişət zorakılığı hallarının qarşısının alınması üçün maarifləndirmə işinin gücləndirilməsi dövlətimizin daxili siyasətində bu gün ən mühüm prioritetlərdən biridir.

Sonda Belə nəticəyə gəlmək olar ki, məişət zorakılığı bir intim partnyorun digəri üzərində nəzarətini həyata keçirmək üçün işlətdiyi davranışlar toplusudur. Bəzən yanlış olaraq məişət zorakılığı baş verən zaman günahın qurbanda olduğu düşünülür və zorakılığı törədən şəxsə bəraət qazandırılır. Lakin bunlar heç bir halda bir partnyorun digərinə qarşı zorakılıq törətməsinə haqq vermir.

Digər cinayət hallarında stressli, içkili olmaq güzəşt sayılmadığı kimi məişət zorakılığında da heç bir halda zorakılıq törədən şəxsə haqq qazandırılmamalıdır.

**Məqalənin aktuallığı.** Məişət zorakılığının geniş vüsət alması, zorakılığa məruz qalan şəxslərə qarşı qlobal sülh və təhlükəsizliyə zərbə vurur. Məqalənin də məhz bu kimi vacib bir problemə həsr edilməsi onun aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə məişət zorakılığına məruz qalmış şəxslərin problemlərinə aid nəzəri müddəalar, qanunvericiliyə dair faktlar irəli sürülmüş və həmin faktların müasir tələblərə uyğun elmi mahiyyəti açıqlanmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədəki faktlardan, praktik nümunələrdən habelə təklif və nümunələrdən və tövsiyələrdən məişət zorakılığına məruz qalmış şəxslər xüsusən də qadınlar və uşaqlar faydalana bilər.

## Ədəbiyyat

1.Məişət zorakılığına qarşı müdafiə tədbirləri. Qanunvericilik və onun tətbiqi praktikası. Bakı, 2014.

2.Fitch FJ, Papantonio A. Men who batter: some pertinent characteristics. J Nerv Ment Dis, 1983.

3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli, 1058-IIIQ nömrəli Qanunu.

4.Azərbaycan Məhkəmə Sistemində Məişət Zorakılığı ilə bağlı İşlər. Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsi. ATƏT-in Bakı Ofisi. Mənbə: http://www.osce.org/az/baku/110045?download=true

5."Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli, 1058-IIIQ nömrəli Qanunu, maddə 9.

6."Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli, 1058-IIIQ nömrəli Qanunu, maddə 11.1 və 11.2.

7."Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli, 1058-IIIQ nömrəli Qanunu, maddə 10.2.

8."Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli, 1058-IIIQ nömrəli Qanunu, maddə 12.1.

**С.И. Мамедова**

## Причины и последствия бытового насилия

## Резюме

Статья посвящена жертвам домашнего насилия, особенно женщинам и детям. В статье говорилось о государственной защите жертв домашнего насилия, а также о предоставлении краткосрочных и долгосрочных охранных ордеров жертвам домашнего насилия. Были исследованы физические, психологические, экономические, социальные и сексуальные типы домашнего насилия, и была предоставлена различная информация о предотвращении домашнего насилия в отношении женщин. В статье используются достоверные факты о домашнем насилии и список различных источников.

**S.I. Mammadova**

## Causes and consequences of domestic violence

## Summary

The article is dedicated to victims of domestic violence, especially women and children. The article discusses the state protection of victims of domestic violence, as well as the provision of short and long term protection orders to victims of domestic violence. The physical, psychological, economic, social and sexual types of domestic violence were investigated, and various information was provided on the prevention of domestic violence against women. The article uses accurate facts about domestic violence and a list of various references.

**Redaksiyaya daxil olub:** 26.11.2020